| | | |
|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | MGT410, Təşkilati davranış, 6 AKTS |
| | **Departament** | Təhsil |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr |
| | **Tədris semestri** | 2025/26-cı tədris ilinin yaz semestri |
| | **Fənni tədris edən müəllim (lər)** | Nərminə Babanlı |
| | **E-mail:** | nbabanli@khazar.org |
| | **Mühazirə otağı/Cədvəl** | Nərimanov korpusu |
| | **Məsləhət saatları** | Tələbələrlə razılaşdırılan vaxtlarda |
| **Prerekvizitlər** | EDU 101 Təhsilə Giriş | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | 1. İsgəndərov, İ. (2017). Təşkilati davranış və menecment psixologiyası. Bakı<br>2. İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Dərs vəsaiti. "Aypara" Nəşriyyatı. Bakı 2013. 280 səh.<br>3. Ş. Qafarov və R.Rzayev, Liderlik və təşkilati davranış, dərslik.<br>4. Robbins Stephen P., & Judge Timothy A. (2012). Organizational Behavior. Pearson Publication<br>5. Robbins Stephen P., Judge Timothy A. (2012). Örgütsel Davranış, Çeviri Editörü: İnci Erdem, Nobel Yayınevi, 14. Baskıdan Çeviri.<br>6. Griffin, R. W. & Moorhead, G. (2013). Organizational behavior. Managing people and organizations. South-Western College Pub<br>7. Təşkilati davranış haqqında yazılmış bütün kitablardan istifadə edilə bilər.<br>8. Mövzularla əlaqəli nəşr olunmuş elmi məqalələri/kitabları əldə etmək üçün:<br>a) Google Scholar - https://scholar.google.com/<br>b) ERIC - https://eric.ed.gov/<br>c) Library Genesis - http://libgen.rs/<br>Kurs, yuxarıda göstərilən dərsliklərin və Xəzər Universiteti kitabxanasında mövcud olan tədris materiallarının istifadəsini məhdudlaşdırmır. | |
| **Kursun təsviri** | Müasir dövrdə işəgötürən üçün əməkdaşın bilik səviyyəsi, onun icra intizamı və verilən tapşırıqları yerinə yetirməyə hazır olmasından daha önəmli hesab olunur. Xüsusilə öyrənmə qabiliyyəti ən yüksək dəyər verilən keyfiyyətlərdən birinə çevrilmişdir. Bu isə işəgötürənlərlə əməkdaşlar arasındakı münasibətlərin xarakterinin dəyişməsinə səbəb olur. Təşkilati davranışın mahiyyəti fərdlərin, qrupların və təşkilatların davranışlarının | |

| | |
|---|---|
| | sistemli və elmi şəkildə təhlil edilməsindən ibarətdir. Burada başlıca məqsəd xarici mühit amillərini nəzərə alaraq həm təşkilatın, həm də fərdin fəaliyyətinin inkişafına nail olmaqdır. Təşkilati davranış, müəyyən edilmiş hədəflərə çatmaq və təşkilatın fəaliyyət səmərəliliyini yüksəltmək üçün fərdlərin və qrupların davranışlarının öyrənilməsi və formalaşdırılmasını əhatə edir. |
| **Kursun məqsədləri** | Təşkilati davranış fənninin başlıca məqsədi təşkilat və ya qurum daxilində insanlar arasında formalaşan münasibətləri araşdırmaq, bu münasibətlərin yaranma səbəblərini müəyyənləşdirmək və iş məqsədlərinə daha uğurlu şəkildə nail olmaq üçün onlara təsir göstərməkdir. Bununla yanaşı, təşkilati davranışın digər mühüm hədəfi təşkilat mədəniyyətini formalaşdırmaq, yüksək keyfiyyətlərə sahib əməkdaşları cəlb etmək, onlar arasında səmərəli və mənalı əlaqələr qurmaq, anlaşılmazlıq və münaqişələri aradan qaldırmaq, işçilərin fərdi xüsusiyyətlərini inkişaf etdirmək, həmçinin sağlam və şəffaf liderlik zəncirini yaratmaqdan ibarətdir.<br>Təşkilati davranışın mahiyyəti ətraf mühit amillərini nəzərə almaqla təşkilat daxilində fərdi davranış və fəaliyyəti anlamaq, əvvəlcədən proqnozlaşdırmaq və təkmilləşdirmək məqsədilə fərdlərin, qrupların və bütövlükdə təşkilatların davranışlarının sistemli şəkildə təhlil olunmasını əhatə edir. Bu fənnin qarşısında dörd əsas vəzifə dayanır:<br>➢ təsvir (əmək fəaliyyəti ilə bağlı müxtəlif situasiyalarda insanların davranışlarının ardıcıl və sistemli şəkildə təsviri);<br>➢ anlama (müəyyən şəraitdə fərdlərin davranış və hərəkətlərinin səbəblərinin izah edilməsi);<br>➢ proqnozlaşdırma (vəziyyətləri öncədən görmək bacarığının, menecerin peşəkar bilik və intuisiyası əsasında inkişaf etdirilməsi);<br>➢ idarəetmə (iş prosesində insanların davranışını yönləndirmə bacarığına yiyələnmək və onların fəaliyyət səmərəliliyini artırma yollarını müəyyən etmək).<br>Beləliklə, təşkilati davranış insanların əmək fəaliyyətinin effektivliyini yüksəltmək üçün əldə olunan biliklərin praktik tətbiqinə yönəlmiş, təşkilatlarda fərdlərin və qrupların davranışlarını öyrənən bir elm sahəsidir. |
| **Tədrisin (öyrənmənin) nəticələri** | Kursun sonunda tələbələr aşağıdakıları bacarmalıdır:<br>• Təşkilatlarda insan davranışlarını izah edə biləcək;<br>• Şəxsiyyət tiplərini fərqləndirə biləcək<br>• Təşkilat daxilində qrup rəhbərliyini və qrup formalaşmasını təhlil edə biləcək;<br>• Liderlik, həmçinin motivasiya nəzəriyyələrinə aid məlumatları nümayiş etdirə biləcək;<br>• Problem həlletmədə liderlik nəzəriyyələrini tətbiq edə biləcək;<br>• Müxtəlif liderlik tərzlərinə görə situasiyaları qiymətləndirmək və |

<table>
<tr><td></td><td colspan="3">müvəffəqiyyət ehtimalını müəyyən edə biləcək;<br>• Təşkilatlarda müsbət və mənfi insan (işçi) davranışlarını fərqləndirə biləcək;<br>• Təşkilatlarda dəyişikliklər haqqında mülahizələr irəli sürə biləcək.<br>Bu kursun nəticələri tələb olunan materialları oxumaq və müzakirələrdə iştirak etməklə əldə ediləcəkdir.</td></tr>
<tr><td rowspan="3">**Tədris metodları**</td><td>**Mövzunun izahı və təqdimatı**</td><td colspan="2">+</td></tr>
<tr><td>**Qrup müzakirəsi**</td><td colspan="2">+</td></tr>
<tr><td>**Praktiki tapşırıqlar**</td><td colspan="2">+</td></tr>
<tr><td rowspan="8">**Qiymətləndirmə**</td><td>**Komponentləri**</td><td>**Tarix/son müddət**</td><td>**Faiz (%)**</td></tr>
<tr><td>Davamiyyət</td><td>Semestr müddətində</td><td>5</td></tr>
<tr><td>Keys çalışması</td><td>Semestr müddətində</td><td>5</td></tr>
<tr><td>Quiz (2)</td><td>Mart, May</td><td>10</td></tr>
<tr><td>Prezentasiya/Qrup müzakirə</td><td>May</td><td>10</td></tr>
<tr><td>Aralıq imtahanı</td><td>Aprel</td><td>35</td></tr>
<tr><td>Final imtahanı</td><td>May</td><td>35</td></tr>
<tr><td>Yekun</td><td></td><td>100</td></tr>
<tr><td>**Qaydalar<br>(Tədris siyasəti və davranış)**</td><td colspan="3">***Dərsin təşkili:***<br>✓ Fənnə aid ümumi xarakterli məlumatlar nəzəri materialın izahı formasında tələbələrə çatdırılacaqdır.<br>✓ Yeni mövzu əyani vasitələrin *(PPT və video fayllar)* nümayişi ilə izah ediləcəkdir.<br>***Quiz:***<br>✓ Aralıq və final imtahanları öncəsi tələbələrin mənimsəmə səviyyələri yoxlanılacaqdır.<br>***Fəallıq:***<br>✓ Dərs zamanı tələbələrin əvvəlki mövzunu mənimsəmələri şifahi və yazılı sorğunun keçirilməsi ilə hər dərs qiymətləndiriləcəkdir, semestrin sonunda isə ortaq qiymət çıxarılacaqdır.<br>***Prezentasiya:***<br>✓ Semestr ərzində fərdi mövzuda prezentasiyaların verilməsi vacibdir. Prezentasiya vaxtı, sonunda müzakirə də daxil olmaqla 15 dəqiqədən artıq olmamalıdır. Prezentasiya mövzuları və qaydaları haqda dərsdə daha geniş tanışlıq olunacaqdır.<br>***Ümumi qaydalar:***<br>***Davamiyyət***<br>Tələbələrin bütün dərslərdə iştirakı vacibdir. Tələbələr müəyyən səbəblərdən dərslərin buraxılması (xəstəlik, ailə vəziyyəti və s.) haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs (8 qayıb) buraxan tələbələr imtahana buraxılmır. (3 qayıb - 1bal)<br>***Gecikmə***<br>Tələbə dərsə 15 dəqiqədən artıq gecikmişdirsə, onun dərs otağına daxil olması və dərsə maneçilik törətməsinə icazə verilmir. Buna baxmayaraq, tələbə ikinci dərs saatına buraxıla bilər.</td></tr>
</table>

| | | | |
|---|---|---|---|
| | | ***Yoxlama işi (Quiz)***<br>Müəllimə və dekanlığa qabaqcadan məlumat verilən səbəblərdən yoxlama işində iştirak etməyən tələbə yoxlama işini növbəti həftədə yaza bilər.<br>***İmtahanlar***<br>Tələbənin imtahanda iştirakı və ya imtahanın buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur. İmtahanda iştirak etməmə yalnız dekanlığın icazəsi ilə mümkündür. İctimai fəaliyyətlə əlaqədar imtahanlardan yayınma hallarına yol verilmir. İmtahanlar kumulyativ xarakterli olmalıdır. Aralıq və yekun imtahanların mövzuları tələbələrə imtahandan öncə verilir. Son imtahanda sualların əksəriyyəti aralıq imtahandan sonra keçirilmiş materialların əsasında tərtib olunur.<br>***İmtahan qaydalarının pozuntuları***<br>İmtahanlarda mövcud qaydaların pozulması (köçürmə cəhdləri, köçürmələr, imtahanın gedişini pozmaq və digər qanunsuz hərəkətlər) hallarında tələbənin imtahan işi ləğv olunur.<br>***Tələbənin kursu başa vurması***<br>60% və daha artıq bal toplamış tələbə kursu bitirmiş hesab olunur. Final imtahan nəticəsi 100 baldan 57, 58 və ya 59 bal taplayan tələbələr dekanlığın icazəsi ilə tamamlama imtahanına müraciət edə bilərlər. Əks halda tələbə bu kursu yenidən keçməlidir.<br>***Dərslərdə davranış***<br>Tələbə dərs zamanı müvafiq akademik şəraitin yaradılması üçün mümkün olan hər şeyi etməlidir. İcazəsiz danışığa, lüzumsuz hərəkətlərə və s. qeyri-etik davranışa qətiyyən yol verilmir.Tələbə dərsdə fəal şəkildə iştirak etməli, lazım olduqda suallar verməli və müzakirələrdən kənarda qalmamalıdır. Dərs zamanı dərs prosesini və etik qaydaları pozmaq, həmçinin tələbələr arasında icazəsiz müzakirələr və mobil telefonlardan istifadə qadağandır. | |
| **Cədvəl (dəyişdirilə bilər)** | | | |
| **Həftə** | **Tarix** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
| 1. | 17.02.2026 | Sillabus – fənnin məqsədləri, qiymətləndirmə siyasəti haqda məlumat<br>Təşkilati davranış bir elm sahəsi kimi<br>**Mövzu № 1**. Təşkilatlarda davranışın əsasları | İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Dərs vəsaiti. “Aypara” Nəşriyyatı. Bakı 2013.səh 10-24 |
| 2. | 24.02.2026 | **Mövzu № 2**. Şəxsiyyət, onun təşkilatda rolu və davranışı<br>**Mövzu № 3**. Təşkilatlarda motivasiya, öyrənmə və davranış | İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Dərs vəsaiti. “Aypara” Nəşriyyatı. Bakı 2013.səh 46-67<br>2. İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati |

| | | | |
|---|---|---|---|
| | | | davranış və menecment psixologiyası. Dərs vəsaiti. "Aypara" Nəşriyyatı. Bakı 2013.səh 69-107 |
| 3. | 03.03.2026 | **Mövzu № 4**. Təşkilatlarda qrup və komandalar<br>**Mövzu № 5.** Təşkilatlarda kommunikasiya | İsgəndərov İ. İ., Erdəmir-Şivəxanova S. Təşkilati davranış və menecment psixologiyası. Dərs vəsaiti. "Aypara" Nəşriyyatı. Bakı 2013.səh 162-221 |
| 4. | 10.03.2026 | **Mövzu № 6.** Liderlik<br>**Mövzu № 7.** Liderlik nəzəriyyələri | Ş.Qafarov və R.Rzayev, Liderlik və təşkilati davranış, dərslik. |
| 5. | 17.03.2026 | **Mövzu № 8.** Təşkilatlarda menecerlik<br>**Mövzu № 9.** Menecerliyin bilik, bacarıq və vərdişləri | Griffin, R. W. & Moorhead, G. (2013). Organizational behavior. Managing people and organizations. South-Western College Pub. Səh. 7-13. |
| 6. | 31.03.2026 | **Mövzu № 10.** Mövzularla bağlı münaqişə və müzakirə | |
| 7. | 07.04.2026 | **Mövzu № 11.** Təşkilati dəyişikliklər,<br>**Mövzu № 12.** Təşkilatda stressin idarəolunması | Organizational behavior/Stephen P.Robbins, Timothy A.Judge – 18-th edition, © Pearson Education Limited, 2020, səh.577 |
| 8. | 14.04.2026 | Quiz və keçilən mövzuların təkrarı | |
| **Aralıq imtahanı** | | | |
| 10. | 28.04.2026 | **Mövzu № 13.** Təşkilati mədəniyyət<br>**Mövzu № 14.** Təşkilatlarda müsbət işçi davranışları | Organizational behavior/Stephen P.Robbins, Timothy A.Judge – 18-th edition, © Pearson Education Limited, 2020, səh.511 |
| 11. | 05.05.2026 | **Mövzu № 15.** Təşkilatlarda mənfi işçi davranışları<br>**Mövzu № 16.** Hakimiyyət və təsir | Organizational behavior/Stephen P.Robbins, Timothy A.Judge – 18-th edition, © Pearson Education Limited, 2020, səh.455 |
| 12. | 12.05.2026 | **Mövzu № 17.** Güc və siyasət | Organizational behavior/Stephen P.Robbins, Timothy A.Judge – 18-th edition, © Pearson Education |

| | | | |
|---|---|---|---|
| | | | Limited, 2020, səh. 445, 543 |
| 13. | 19.05.2026 | **Mövzu № 18.** İnsan həyatında karyera | Axundova N. F. Təşkilati davranış. "İqtisad Universiteti" Nəşriyyatı. Bakı 2014. Səh.116-122 |
| 14. | 26.05.2026 | **Mövzu № 19.** Təşkilatda münasibətlər: münasibətlərin xarakteristikaları, qavrayış və fərdi qərar qəbulu | Organizational behavior/Stephen P.Robbins, Timothy A.Judge – 18-th edition, © Pearson Education Limited, 2020, səh. 97, 131 |
| 15. | | Quiz və keçilən mövzuların təkrarı | 1. Təqdimat<br>2. Mövzu ilə əlaqəli situasiya təhlili |
| **Final imtahanı** | | | |